

# Zamanı qabaqlayanda

## Prezident İlham ƏLİYEV: *"Azərbaycan sürətli inkişaf yolundadır. Bu inkişafı biz öz hesabımıza qazanmışıq. Nəyi qazanmışıqsa, nəyi əldə etmişiksə, ancaq Azərbaycan xalqının zəhməti hesabına, düşünülmüş siyasət nəticəsində əldə etmişik"*

Bugünkü mürəkkəb beynəlxalq şəraitdə - geosiyasi maraqların toqquşduğu bir vaxtda bu və digər ölkəni, xalqı həmin qarşıdurmaların dağıntı, qan və sosial-iqtisadi böhranla müşayiət olunan fəsadlarından xilas etmək heç də asan iş deyil. Ən azından, hətta neçə illərin oturuşmuş dövlətlərinin və onların liderlərinin həmin fəsadlardan qurtula bilməyib sıradan çıxmaları bunu sübut edir. Belə bir zamanda dünyanın ən həssas regionunda yerləşən Azərbaycanın bəxti isə onda gətirib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini bərpa etmiş bu gənc dövlətin başında ilk 10 il təcrübəli siyasi lider Heydər Əliyev, indi isə gözlənilən problemləri məharətlə zərərsizləşdirməyi bacaran, praqmatik siyasətçi Prezident İlham Əliyev dayanmışdır. Əgər Heydər Əliyevin bəxtinə dünya nəhəngi SSRİ-nin dağılması nəticəsində regionda yaranmış çox mürəkkəb siyasi, iqtisadi və sosial problemlərlə dolu bir zaman düşmüşsə, bu gün İlham Əliyevin qarşısında heç də ondan az təhlükəli olmayan bir şəraitdə ulu öndərin əmanəti - müstəqil Azərbaycanı qorumaq, qüdrətləndirmək və inkişaf etdirmək missiyası dayanır.

Ətrafımızda, uzaq və yaxın qonşu ölkələrdə baş verən və sonu görünməyən qan-qadalı hadisələrin fonunda müasir Azərbaycanın sosial-iqtisadi durumu, daxili ictimai sabitliyi və xarici siyasi nüfuzu isə sübut edir ki, ümummilli lider Heydər Əliyev kimi, İlham Əliyev də bu tarixi missiyanın öhdəsindən bacarıqla gəlir. Bəlkə də kimsə fikirləşər, yaxud güman edə bilərdi ki, neftin qiyməti ucuzlaşandan sonra digər ölkələrdə olduğu kimi, iqtisadiyyatı əsasən karbohidrogen ehtiyatlarına köklənən Azərbaycanda da dərin böhran yaşanacaq və bunun nəticəsində əhalinin sosial müdafiəsi zəifləyəcək, ardınca ictimai sabitlik pozulacaq, ara qarışacaq, məlum "rəngli ssenari"lərə start veriləcək və s. Ancaq göründüyü kimi, buna güman edənlər yanılmışlar. Çünki bu gün Azərbaycanda iqtisadi, sosial və maliyyə böhranını şərtləndirən heç nə baş vermir - qeyri-neft sektorunda məhsul istehsalı artır, əhalinin sosial müdafiəsi nəinki zəifləmir, hətta güclənir, dövlət büdcəsinin gəlirlər üzrə proqnozları vaxtında və artıqlaması ilə yerinə yetirilir. Rəqəmlərə nəzər salaq. Dövlət Statistika Komitəsinin açıqladığı son hesabata görə, cari ilin ilk rübündə ölkə üzrə sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 5,1 faiz artmışdır. Orta aylıq əməkhaqqının artımı isə yanvar-fevral aylarında 6,2 faiz olmuşdur. Bu isə o deməkdir ki, son məlumata əsasən, Azərbaycanda muzdla işləyənlərin orta aylıq maaşı 472 manatdan çoxdur. Sözügedən dövrdə dövlət büdcəsi proqnozlarına əməl olunmasında da vəziyyət kifayət qədər müsbətdir. Təkcə bir fakt: ilin ilk 3 ayında büdcənin icrasında ümumi daxili məhsulun 8,4 faiz (1 milyard 54,6 milyon manat) səviyyəsində profisit yaranmışdır.

Bir-biri ilə sıx bağlı olan bu faktlar iki mühüm qənaətə gəlməyə əsas verir. Birincisi, neftin qiymətinin ucuzlaşmasının Azərbaycan iqtisadiyyatına elə də ciddi təsir etməməsi qənaətidir. Düzdür, məlum subyektiv səbəblərdən doğan bu ucuzlaşma ölkəyə daxil olan xarici valyutanın həcminin azalması və manatın məzənnəsinin ABŞ dollarına nisbətdə aşağı düşməsi ilə nəticələnmişdir. Lakin vaxtında görülmüş tədbirlər və başlanan yeni iqtisadi islahatlar sayəsində həmin nəticələrin ehtimal olunan ziyanları minimuma enmişdir. Çünki Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycanın iqtisadi inkişafının bütün dövrlərində atılan bütün addımlar, aparılan bütün islahatlar yalnız bir məqsədə - ölkə əhalisinin güzəranının yaxşılaşmasına xidmət etmişdir. Bu barədə dövlət başçısı ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə keçirilən rəsmi qəbuldakı nitqində demişdir: "Bu gün bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi dayanır. Azərbaycanda təhlükəsizlik məsələləri lazımi səviyyədə təmin edilir. İctimai-siyasi sabitlik mövcuddur. İnsanların rifah halı yaxşılaşır. Baxmayaraq, bu gün hələ ki, davam edən dünya iqtisadi və maliyyə böhranı bizə də öz təsirini göstərmişdir. Ancaq hesab edirəm ki, biz bu böhrandan şərəflə çıxa bilmişik və bu gün iqtisadi sahədə heç bir problem yaşanmır. Maliyyə vəziyyətimiz sabitdir, iqtisadi inkişaf davam edir, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi ilə əlaqədar problemlər olsa da, ancaq biz bu problemlərin öhdəsindən sürətlə gəlirik. Əminəm ki, 2016-cı ili də biz uğurla başa vuracağıq. Nəyə görə? Ona görə ki, əvvəlki illərdə dayanıqlı iqtisadi inkişaf təmin edilmişdir, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox ciddi addımlar atılmışdır. Bununla bərabər, Heydər Əliyevin neft strategiyası Azərbaycanda uğurla icra edilmişdir".

Nəzərə çatdırdığımız rəqəmlərdən doğan ikinci mühüm qənaətsə bu gün Azərbaycan iqtisadiyyatının neftsiz dövrə qədəm qoymasıdır. Məlum olduğu kimi, 2016-cı ilin dövlət büdcəsi təsdiq edilərkən neftin qiyməti 50 dollardan götürülmüşdür. Lakin sonradan həmin qiymətlər təxminən 27-28 dollaracan düşdü və bu səbəbdən dövlət büdcəsinə yenidən baxıldı. Bu dəfə dövlət büdcəsi neftin bir barelinin qiyməti 25 dollar nəzərə alınaraq təsdiqləndi.

Bunları nəyə görə xatırladırıq? Əvvəla ona görə ki, dövlət büdcəsi sıradan bir sənəd yox, ölkənin sosial-iqtisadi inkişafının güzgüsüdür. Bu səbəbdən həmin sənəddə hər hansı bir dəyişiklik olunarsa, adətən, vətəndaş onu öz həyatında dərhal hiss edir. Yəni, il ərzində büdcə təşkilatında çalışırsa, ən azından əməkhaqqı, təqaüddədirsə pensiyası, az təminatlıdırsa, müavinəti artmır, ətrafında dünənəcən sürətlə həyata keçirilən sosial infrastruktur layihələrin icrası donur, iş yerləri bağlanır, ixtisarlar aparılır və s. Azərbaycanda isə, hamının şahidi olduğu kimi, bunlar yaşanmadı və bu gün də yaşanmır. Çünki ölkəmiz post-neft dövrünə hələ neft bumu zamanında hazırlaşmağa başlamışdı. Təsadüfi deyil ki, indi Azərbaycan iqtisadiyyatında ən dinamik inkişaf edən sahə qeyri-neft sektorudur. Qeyri-neft sektoru indi həmçinin ən çox sərmayə yatırılan sahədir. Yalnız bu ilin birinci rübündə əsas kapitala yönəldilən 2,8 milyard manatdan çox investisiyanın 87,9 faizi məhsul istehsalı və 7,7 faizi müxtəlif xidmət obyektlərinin tikintisinə yönəldilmişdir ki, onların da əksəriyyəti qeyri-neft sektoruna aiddir. Başqa bir fakt: bu gün iqtisadiyyatın qeyri-neft sektorunda 1,4 milyon nəfərdən çox adam çalışır. Halbuki neft sektorunda işləyənlərin sayı cəmi 34,3 min nəfərdir.

Qeyri-neft sektorunun inkişafının ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaqla yanaşı, digər vacib məqamları da var. Bunlar, eyni zamanda, sahibkarlığın və regionların inkişafıdır. Bəli, bu gün ölkəmizdə qeyri-neft sektoru məhz sahibkarlığın hesabına əsasən regionlarda inkişaf edir. Çox vacib bir sahəyə bu cür sadə, amma sadə olduğu qədər də düşünülmüş və uzaqgörən münasibət Azərbaycanın regionlarının simasını dəyişməklə yanaşı, potensialını hərəkətə gətirir, üstəlik, yerlərdə özəl sektorun inkişafı hesabına sosial problemlərin həllinə geniş imkanlar yaradır. Xüsusən Prezident İlham Əliyevin təşəbbüsü ilə bu sahədə həyata keçirilən yeni islahatlar və olunan güzəştlərdən sonra regionlarda özəl sektora bir axın başlamışdır. Yenə də rəsmi statistikaya nəzər salaq: yalnız bu ilin yanvar-mart aylarında yeni yaranan müəssisələrin 97 faizdən çoxu özəl sektora məxsus olmuşdur. Müəssisələrinsə sayı az deyil - 102,1 min.

Bir sözlə, Azərbaycan təlatümü bir zamanda, çalxalanan bir regionda öz yoluna davam edir. Bu yolun adı inkişaf, qurucusu Azərbaycan xalqıdır: "Azərbaycan sürətli inkişaf yolundadır. Bu inkişafı biz öz hesabımıza qazanmışıq. Nəyi qazanmışıqsa, nəyi əldə etmişiksə, ancaq Azərbaycan xalqının zəhməti hesabına, düşünülmüş siyasət nəticəsində əldə etmişik. Bizə heç kim kömək etməmişdir, etmir və etməyəcəkdir. Buna ehtiyac da yoxdur". Bu sözləri də Prezident İlham Əliyev qeyd etdiyimiz rəsmi qəbuldakı nitqində söyləmişdir.

*Raqif MƏMMƏDOV,*
*"Azərbaycan"*